# Sənətşünas müğənninin "Əsr türkün əsridir" layihəsi

**Əməkdar artist, Opera və Balet Teatrının solisti, sənətşünaslıq üzrə fəlsəfə doktoru Gülüstan Əliyeva türkçülüyə həsr olunan "Əsr türkün əsridir" layihəsini təqdim edib. Məfkurəvi mahnıda Türk xalqlarının birliyi, tarixi, mədəni bağlılığı tərənnüm olunur.**



Azərbaycan dili ilə yanaşı , mahnının bəzi bəndləri qazax, qırğız, özbək, türkmən dillərində oxunub. Mətndə türk xalqlarının qəhrəmanlarının da adları çəkilir. Mahnının ərsəyə gəlməsində Türk xalqlarına məxsus qədim musiqi alətlərindən, rəqslərdən, şamanizmi təcəssüm etdirən qavaldan istifadə olunub. Klipdə çəkilən bütün kadrlar, hətta xüsusi hazırlanmış geyimlər türkçülüyü əks etdirir. Orxon - Yenisey, Göytürk, şamanizm elementlərilə hazırlanmış geyimlər Azərbaycanın təkəlduz sənətinə aiddir.

Kompozisiyanın musiqisi Qoçaq Əsgərova, aranjimanı "Ethno Class" orkestrının rəhbəri, pianoçu Tural Məmmədliyə, sözləri professor Mahirə Nağıqızıya məxsusdur. Klip "AS" prodakşnda hazırlanıb. Layihənin rəhbəri tanınmış telejurnalist Səidə İbrahimli, rejissoru Faiq Əliyevdir. Rəqslərə quruluşu xoreoqraf Aslana Əliyeva verib. Kompozisiyanın sözlərini türk xalqlarının dillərinə türkoloq Yeganə Aslanova tərcümə edib.

***XQ***



Xalq qəzeti.- 2025.- 19 sentyabr, №200.- S.11.